DOI:10.30546/gdu.3.2024

UOT: 94.

# AZƏRBAYCAN SSR-NİN YARADILMASINDAN SONRA ERMƏNİSTANLA ƏRAZİ- SƏRHƏD MƏSƏLƏLƏRİNİN KƏSKİNLƏŞMƏSİ. BOLŞEVİK RUSİYASININ MÖVQEYİ

***Mehdiyeva Nəsrin Famil qızı***
***Bakı Dövlət Universiteti***
***Qafqaz xalqları tarixi kafedrasının doktorantı***
***nesrin.99@mail.ru***

**Xülasə:** *1920-ci ilin aprelin 28-də Azərbaycanın işğal edilərək sovetləşdirilməsindən sonra Cənubi Qafqazda geosiyasi şərait dəyişdi. Ermənistanda hakimiyyətdə olan daşnaklar isə yeni ərazilər işğal etmək üçün Azərbaycana qarşı iddialarını genişləndirdilər. Azərbaycan hökuməti Ermənistan ilə ərazi mübahisələrində hərbi deyil, diplomatik-siyasi yolla həllinə üstünlük verirdi. Tarixi həqiqətləri kobudcasına saxtalaşdıraraq Zəngəzuru və Qarabağı erməni torpaqları hesab edən Ermənistan hökuməti bu əraziləri işğal etmək üçün hər cür yola əl atmışdır. Daşnak Ermənistanı əsassız iddialarına nail olmaq üçün Rusiya Sovet hökumətinə Azərbaycan ilə mübahisələrdə vasitəçi olmağı və azərbaycanlılara məxsus əraziləri mübahisəli elan edib rus qoşunlarını yerləşdirməyi hədəfləyirdi. SSRİ Azərbaycan ərazilərini mübahisəli elan edərək daşnak Ermənistanına vermək üçün çalışırdı.*

*Məqalədə Azərbaycana məxsus tarixi ərazilərin mübahisəli elan edilərək ermənilər tərəfindən işğalı, Mərkəzin bu məsələ ilə bağlı mövqeyi mövqeyi, beynəlxalq vəziyyət, əsassız ərazi iddiaları araşdırılır.*

**Açar sözlər:** mübahisəli ərazilər, daşnaklar, ərazi-sərhəd məsələləri, Sovet Rusiyası, Zəngəzur, Naxçıvan

**Ключевые слова**: спорные территории, дашнаки, территориально-пограничные вопросы, Советская Россия, Зангезур, Нахчыван

**Keywords:** disputed territories, Dashnaks, territory-border issues, Soviet Russia, Zangezur, Nakhchivan

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Moskva Zaqafqaziya respublikalarının Rusiya Federasiyasının tərkibinə daxil olmasını təmin etməyi qarşısına vəzifə qoymuşdu. ASSR-in Moskvadakı fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski bu münasibətlə Sovet Rusiyası Xalq Xarici İşlər Komissarı Q.Çiçerinə ünvanladığı məktubunda yazırdı: "Bu məsələni dəqiq həll etmək üçün mübahisəli məsələlər, ərazi münaqişələri, Zaqafqaziya Respublikalarının iqtisadi əlaqələri ilə tanış olmaq lazımdır..." [10, s.158]. Şahtaxtinski qeyd edirdi ki, yeni yaradılmış Zaqafqaziya respublikaları arasında mübahisəli ərazi məsələlərinin ədalətli həlli çox çətin məsələdir, çünki "...əhalisi qarışıq olan ərazilərdə xalqların öz müqəddəratını təyinetməsi çox çətindir. Xalqların öz müqəddəratını təyinetmə prinsipi hər yerdə tam tətbiq oluna bilməyəcəyindən, onun istifadə ediləcəyi respublika yeni "prinsiplərdən" istifadə etməlidir: tarixi qanun, iqtisadi şərait, dövlətin sərhədlərinin qorunması, onun təbii sərhədləri prinsipi və s." Məktubun sonunda Şahtaxtinski belə nəticəyə gəlir ki, Cənubi Qafqazda ərazi və digər mübahisələrin həlli forması Dağıstan daxil bütün Zaqafqaziya respublikalarının bir Qafqaz respublikasına birləşdirilməsi və onun Rusiya Federasiyasının tərkibinə qatılmasıdır. O, məktubun sonunda ayrıca vərəqdə Cənubi Qafqaz respublikaları arasında mübahisə obyekti olan əraziləri sadalamışdır.

Azərbaycan ərazilərinin Ermənistana verilməsinin qarşısını almaq üçün Azərbaycan hökuməti əlindən gələni etdi. 1920-ci il avqustun 5-də ASSR Xalq Xarici İşlər Komissarlığı mübahisəsiz ərazinin sərhədlərinin təsvirini hazırladı. RKP (b) Qafqaz Bürosunun üzvü

DOI:10.30546/gdu.3.2024

Q.Orconikidze 1920-ci il avqustun 10-da Rusiyanın Ermənistandakı nümayəndəsi B.Leqranla birbaşa teleqraf söhbətində Qırmızı Ordunun Ermənistanla hərbi əməliyyatlarını dayandırmasının şərtlərindən danışır: "...Ermənistan hökuməti qoşunlarını Zəngəzur və Naxçıvandan Şahtaxtıya qədər çəkib." [10, s.158]. 1920-ci il avqustun 10-da İrəvanda RSFSR ilə Ararat Respublikası arasında hərbi əməliyyatların dayandırılması haqqında ilkin müqavilə imzalandı. 6 bənddən ibarət bu müqavilənin şərtlərinə görə RSFSR Ermənistan Respublikasının müstəqilliyini tanıdı. Müqavilənin 2-ci və 3-cü bəndlərinə əsasən: 2. "Ermənistan Respublikasının qoşunları aşağıdakı xətti tuturdular: Şahtaxtı, Xok, Aznabyurt, Sultanbek və daha sonra Kukidən şimalda və bu il iyulun 30-da fəaliyyət göstərdikləri Qazax qəzasında Bazarçaydan (Bazarkənd) qərbdə olan ərazilər. RSFSR qoşunları Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu müqavilə ilə müəyyən edilmiş zolaq istisna olmaqla, Qarabağın, Zəngəzurun və Naxçıvanın mübahisəli rayonlarını işğal edirlər. 3.Mübahisəli ərazilərin sovet qoşunları tərəfindən işğalı Ermənistan Respublikasının və ya Azərbaycan Sosialist SSR-in bu ərazilərinə hüquqlar məsələsini həll etmir. RSFSR bu müvəqqəti işğalla yaxın gələcəkdə RSFSR ilə Ermənistan Respublikası arasında bağlanacaq sülh müqaviləsinin əsasında Ermənistan və Azərbaycan arasında ərazi mübahisələrinin sülh yolu ilə həlli üçün əlverişli şərait yaratmaq niyyətindədir". 5-ci bəndə əsasən, müqavilə bağlanmazdan əvvəl Şahtaxtı-Culfa hissəsində dəmir yolunun istismarı Ermənistan Dəmir Yolları İdarəsinin tabeliyinə verilmişdir [10, s.159]. Bu müqaviləyə əsasən Şərur və Naxçıvan qəzalarının şimal-qərb bölgələri Ermənistanın tərkibində qaldı [5, s.258-260]. Azərbaycan Qarabağ, Zəngəzur və Naxçıvan ərazilərinin "mübahisəli" elan edilməsinə qarşı çıxdı. Nərimanov həmin vaxt Leninə teleqram vurmuşdu. Orada ərazi məsələsi ətrafında yaranmış çətin vəziyyətə işarə edərək, Sovet Azərbaycanının nümayəndəsinin artıq Moskvaya göndərildiyini bildirmiş və qətnamənin icrasını müvəqqəti dayandırmağı xahiş etmişdir [2, s.48]. Yuxarıdakı müqavilənin imzalanması xəbərini alan N.Nərimanov 1920-ci ilin avqustunda V.Leninə yazırdı: "Vəziyyət dəhşətlidir. Əgər bu ərazilər Gürcüstana verilsəydi, ictimai rəylə birtəhər mübarizə aparmaq olardı, lakin onların Ermənistana, daşnaklara verilməsi böyük səhvdir" [10, s.159]. Başqa bir məktubunda isə o, yazır: Açığını deyim ki, Mərkəz silahi bizim əlimizdən almaqla və Qarabağ haqqında verdiyi qərarlarla Azərbaycanı guya müsəlman kommunistlərinin Rusiyaya satdığını söyləyən, Rusiyanın Ermənistan və Gürcüstanın müstəqilliyini eyni vaxtda tanıdığını və bəzi səbəblərə görə Azərbaycanda sovet hakimiyyəti qurulmazdan əvvəl mübahisəsiz əraziləri indi mübahisəli ərazilər olduğunu hesab edən Müsavatın təxribatını gücləndirdi və əsaslandırdı."

ASSR-in Moskvadakı fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin 1920-ci il avqustun 4-də Q.Çiçerinə yazdığı məktubunda Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məsələsində bolşevik Rusiyasının mövqeyindən Azərbaycan rəhbərliyinin məyusluğu belə ifadə olunurdu: "... Sovet hakimiyyətinin düşmənləri fərəhlə qeyd edirlər ki, Gürcüstan və Ermənistan Rusiya ilə müttəfiqlikdən əl çəkərək, Antantanın köməyi ilə nəinki tam müstəqilliklərini qoruyub saxladılar həm ağır iqtisadi çətinliklərdən qaçdılar, həm də əvvəllər heç şübhəsiz Qırmızı Ordunun gəlişinə qədər Azərbaycana məxsus olan yeni ərazilər aldılar". Daha sonra Şahtaxtinski çevrilişdən əvvəl ona məxsus olan ərazilərin Azərbaycanın tərkibində saxlanılmasının, yəni Zaqatala qəzasının, Qarabağın və Naxçıvanın ondan qoparılmamasının vacibliyindən yazırdı, çünki bu ərazilər danılmaz olaraq müstəqil Azərbaycan hökumətinin tabeliyində idi. Bu ərazilər Azərbaycana mənsub olmuş və onun tərkib hissəsini təşkil etmiş və onunla tarixi, etnoqrafik və iqtisadi cəhətdən sıx bağlı olmuşdur [10, s.160]. V.Leninə yazdığı məktubdan aydın olur ki, Sovet hökuməti nə Rusiya ilə Ermənistan arasında gedən danışıqlar, nə də 1920-ci il avqustun 10-da bağlanmış müqavilə haqqında Azərbaycana məlumat verməyib. Şahtaxtinski Leninə yazdığı məktubunda da

DOI:10.30546/gdu.3.2024

yazırdı: "Azərbaycan xalqı demək olar ki, bütün Naxçıvan bölgəsinin Ermənistana verilməsi xəbərinə heyrətləndi". Burada müəllif yazır ki, Azərbaycan və Türkiyə arasında əlaqələri tamamilə kəsmək üçün Rusiya bilərəkdən Naxçıvan bölgəsini Ermənistana verib. 1920-ci il avqustun 10-da RSFSR ilə yuxarıdakı müqaviləni imzalayan Ermənistanın xarici işlər naziri A.Oqancanyan Azərbaycanın dəfələrlə çağırış təkliflərinə cavab olaraq bütün mübahisəli məsələləri həll etmək üçün konfrans təşkil edərək, Azərbaycanın xarici işlər nazirinə aşağıdakı məzmunda teleqram göndərir: "Ermənistan hökumətinin nümayəndələri ilə RSFSR-in səlahiyyətli nümayəndəsi Leqran arasında 1920-ci il avqustun 10-da bağlanmış ilkin razılaşmaya görə, Ermənistanla Azərbaycan arasında ərazi mübahisələri yaxın gələcəkdə RSFSR ilə Ermənistan Respublikası arasında bağlanacaq sülh müqaviləsi ilə müəyyən ediləcək əsaslar əsasında həll edilməlidir. Bu il avqustun 20-də Ermənistan-Azərbaycan konfransının çağırılması təklifinizə cavab olaraq deyilənləri nəzərə alaraq bildirirəm ki, mənim hökumətim RSFSR ilə yekun saziş bağlananadək belə bir çağırışı vaxtından əvvəl olduğunu hesab edir".

Lakin Ermənistanın sərhədləri təkcə Sovet Rusiyası üçün maraqlı deyildi. Böyük Britaniya Xarici İşlər Nazirliyinin mübahisəli ərazilərlə bağlı 1920-ci il sentyabr tarixli "Ermənistan və Qafqaz" memorandumunda deyilir: "Əvvəllər Rusiya İmperiyasının tərkibində olmuş İrəvan Ermənistan Respublikası aşağıdakı doqquz rus inzibati dairəsindən ibarətdir: İrəvan, Novo-Bəyazid, Sürməli, Eçmiədzin, Aleksandropol, Qars, Kağızman, Olti, Ərdəhan. Ermənistan və Gürcüstan respublikaları arasında mübahisəli olan Borçalı kimi tanınan rayon da var, lakin sonradan razılıq əldə olunub və bu rayon gələcəkdə razılaşmalara xələl gətirmədən müvəqqəti olaraq bölünüb. Şərur-Dərələyəz, Naxçıvan, Zəngəzur rayonları və Qarabağın qərb hissəsi Ermənistanla Azərbaycan Respublikası tatarları arasında mübahisə obyektidir. Bu yaz Azərbaycan Respublikası bolşeviklər tərəfindən tutulduqdan sonra Ermənistan hər iki tərəfin hücumuna məruz qaldı və bu ərazilərin müvəqqəti tədbir kimi Sovet Rusiyasına verilməsini nəzərdə tutan müqavilə imzaladı. Ancaq görünür, nə Ermənistan, nə də Azərbaycan hökumətləri hələ də davam edən partizan müharibəsinin qarşısını almaq üçün kifayət qədər güclü olmayıblar. Bu rayonların kimə məxsus olacağına qərar vermək son dərəcə çətindir. Həmin sənəddə göstərilir ki, müttəfiqlər Sovet Rusiyası və Azərbaycana qarşı hərbi əməliyyatlar aparmaq üçün Ermənistanı silahla təmin edirlər [8, cild 1, № 452]. Həmin ilin payızında Ermənistanın Millətlər Liqasına qəbul üçün müraciətində dövlətin ərazisi 26.130 kv.mil göstərilib. (70 551 kv. km) və "Van, Bitlis, Ərzurum vilayətlərinin və Trabzonun bir hissəsinin Ermənistana veriləcəyini fərz etsək, onun ərazisi 80 000 kv.mil təşkil edə bilər. (214 000 kv. km)" [8, I cild, № 483]. Necə ki, V. Çörçill sonralar öz xatirələrində yazırdı: "Erməni iddiaları o dərəcədə təmin edildi ki, yeni dövlətdə müsəlmanlar ermənilərdən və yunanlardan çox idi. Bu işdə ədalətin bərqərar olması naminə həddi aşıblar" [8, 1-ci cild, № 584].

Sovet Rusiyasının himayədarı olduğu erməni qoşunları XI Ordu komandanlığının Qazax qəzasının sərhədlərinin lazımi mühafizəsini təmin etməməsindən istifadə edərək sentyabr ayında rayonun bir hissəsini işğal etdilər. Bu strateji səhvi başa düşən Orconikidze 30 sentyabr 1920-ci il tarixli Leqrana göndərdiyi teleqramında Qazax qəzasının Novo-Bəyazid, Aleksandropol və Borçalı rayonları ilə birlikdə sərhədlərinin Azərbaycana verilməsinin zəruriliyini təkid edirdi. Orconikidze müdafiə edilməli olan dəqiq xətti də qeyd edərək yazırdı: "Azərbaycanın Novo-İvanovka-Mixaylovka Çomborak bölgəsinin ilhaqı bu rayonun Sovet Azərbaycanına olan böyük marağı və əhalinin daşnak hakimiyyətindən hədsiz dərəcədə narazı olmasına gətirib çıxarmışdı. Dəfələrlə bu bölgənin əhalisindən nümayəndələr bölgənin Azərbaycana birləşdirilməsi tələbi ilə müraciət etmişdilər". Sentyabr hadisələri ona gətirib çıxardı ki, Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Qazax qəzasının zəbt

DOI:10.30546/gdu.3.2024

olunmuş hissəsi onun tərkibində qaldı və onların əsasında Karavansaray (İcevan), Çemberek (Krasnoselski), Şəmşəddil və Dilican rayonları yaradılıb [3, s.144].

28 oktyabr 1920-ci ildə İrəvan şəhərində imzalanan Rusiya ilə münasibətlər haqqında müqaviləyə əsasən, Ermənistan Zəngəzuru və Naxçıvanın ona verilməsi və 2,5 milyon qızıl rubl kredit verilməsi şərti ilə Qarabağa iddialarından imtina edəcəkdi. Lakin bu sazişin mətni, daha doğrusu, 17 maddədən ibarət layihə bu məlumatları təsdiq etmir. 1-ci maddədə deyilir: "...RSFSR Türkiyə Ermənistanının rayonlarının Ermənistan Respublikasına birləşdirilməsini ədalətli hesab edir və müəyyən edilmiş müxtəlif bölgələri faktiki ilhaq etmək məqsədi ilə müttəfiq dövlətlər üzərində dostyana nüfuzunu göstərməyə hazırdır. Azərbaycanın artıq RSFSR-in tərkibində təmsil olunduğu 3-cü maddə də maraqlıdır: "Ermənistanla Rusiya Sovet Federasiyasının tərkibində olan Azərbaycan Sosialist Sovet Respublikası arasında dövlət sərhədi Rusiya Sovet İttifaqının nümayəndələri, Ermənistan və Azərbaycan nümayəndələrinin iştirakı ilə konfransında müəyyən ediləcək". Və nəhayət, 4-cü maddəyə əsasən, "Rusiya keçmiş Rusiya imperiyasının aşağıdakı quberniya və vilayətlərini qeyd-şərtsiz Ermənistan dövlətinin bir hissəsi kimi tanıyır: İrəvan və Qars, Naxçıvan qəzası istisna olmaqla, bütün əyalət və qəzaları ilə birlikdə, Yelizavetpol quberniyasının cənubu, Karvansaray və Dilican şəhərləri ilə Qazax qəzası. Ermənistanla Azərbaycan arasında mübahisəli ərazilər olan qondarma Qarabağ, Zəngəzur və Naxçıvan rayonlarının dövlət mənsubiyyəti iki ölkə arasında birbaşa razılaşma olmadıqda referendumla müəyyən edilir". Və təbii ki, müddəalardan biri Azərbaycan neftinin Ermənistana verilməsi ilə bağlı idi.

Sovet hökuməti Ermənistanın maraqlarını müdafiə etməkdə davam edirdi. 1920-ci il oktyabrın 29-da Çiçerin Rusiyanın Ermənistandakı diplomatik nümayəndəliyinə bildirdi: "Biz hələ də işğal etdiyimiz bəzi mübahisəli ərazilərin Ermənistana və ya Azərbaycana verilməsi məsələsini daha əlverişli vaxta qədər təxirə salmağı zəruri hesab edirik, lakin hələlik orada öz işimizə davam edirik [9, s.221]. Noyabrın 4-də AKP MK Siyasi Bürosunun iclasında RKP Mərkəzi Komitəsi Qafqaz Bürosunun üzvləri ilə birlikdə Ermənistandakı vəziyyətlə bağlı məsələni müzakirə etdikdən sonra belə qərara gəldilər: "Yekun qərar: Ermənistana təqdim edilmiş müqavilə haqqında RKP MK ilə bu məsələdə yoldaş Stalinə həvalə edilən danışıqlara qədər aparılmamalıdır; Eyni zamanda, Siyasi Büronun rəyini bildirin ki, Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında sazişdə təklif olunan bənd nə siyasi, nə də strateji baxımdan sərfəli deyil və yalnız son çarə kimi həyata keçirilə bilər; Siyasi Büronun Naxçıvan və Zəngəzurla bağlı rəyinin əsaslandırılmasını yoldaş Nərimanova həvalə edin". Deməli, Azərbaycan sovetləşəndən sonra Sovet Rusiyası ərazi məsələsindən istifadə edərək digər Cənubi Qafqaz dövlətlərini, indiki halda Ermənistanı öz tərəfinə çəkməyə çalışıb. Bu, 1920-ci il noyabrın 9-da Bakıda RKP (b) MK Qafqaz Bürosunun, AzKP (b) MK-nın, AzSSR İnqilab Komitəsi, Bakı Partiya Komitəsinin birgə iclasında çıxış edən Azərbaycanda ən yaxın partiya-sovet işi haqqında hesabatla çıxış edən İ.Stalinin sözlərindən aydın görünür. Mübahisəli ərazilərlə bağlı Stalin deyirdi: "Zəngəzurda (daşnakların) üsyanı var. Biz onlarla mübarizə aparırıq. Əgər Zəngəzuru və Naxçıvanın kimə məxsus olacağını bilmək istəyirlərsə, o zaman onları Ermənistanın indiki hakimiyyətinə keçirmək olmaz, əgər Ermənistan sovetləşsə onda mümkün olacaq" [10,s.164-165]1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti quruldu. Noyabrın 30-da AKP(b) MK Siyasi Bürosunun və Təşkilat Bürosunun birgə iclasında Ermənistanda Sovet hakimiyyətinin elan edilməsi ilə bağlı Erməni İnqilab Komitəsinin teleqramını müzakirə etdikdən sonra belə qərara alındı: "orada Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında sərhəd yoxdur; Zəngəzur və Naxçıvan Ermənistana verilir; Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və iqtisadi ittifaq bağlayır (xüsusən, nefti qeyd edin); Bu bəyannamənin hazırlanması Nərimanova həvalə edilsin" N.Nərimanov

DOI:10.30546/gdu.3.2024

1920-ci il dekabrın 1-də Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə bağlı Bakı Sovetinin təntənəli iclasındakı çıxışında bu qərarı elan etdi. Nərimanovun dəfələrlə təfsirə məruz qalan və tarixə "Nərimanov bəyannaməsi" adı ilə düşmüş çıxışı Azərbaycanın sonrakı tarixində də öz çirkin rolunu oynamışdır. Həmin bəyannamədə deyilirdi: "Ermənistanda və Zəngəzurda ən yaxşı kommunist yoldaşlarımızın günahsız qanlarını tökən daşnakların hakimiyyətinə qarşı qardaş erməni zəhmətkeş xalqının mübarizəsini qarşılamağa hazırlaşan Sovet Azərbaycanı bəyan edir ki, heç bir ərazi məsələsi iki əsrlik qonşu xalqların: ermənilərin və müsəlmanların qarşılıqlı qan tökməsinə səbəb ola bilməz, Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının ayrılmaz hissəsidir, Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzur daxilində bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları çıxarılır. Bundan əlavə, Sovet Azərbaycanı Sovet Ermənistanına öz qapılarını özünün malik olduğu tükənməz sərvətlərə: neft, kerosin və digər məhsullara geniş açır". Maraqlıdır ki, nə noyabrın 30-da keçirilən iclasda, nə də Nərimanovun nitqində Naxçıvanın adı çəkilməmiş, yalnız səhərisi gün qəzetdə belə bir fraza çıxmışdı "Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının bölünməz hissəsidir" [2, VI cild s.176]. Bolşevik rəhbərlərinin (Orconikidze, Stalin) danışıqlarında buraxdıqları səhvlərə əsaslanaraq dekabrın 1-də Sovet Azərbaycanının mübahisəli quberniyalardan könüllü olaraq imtina etdiyini, Zəngəzurun, Naxçıvanın və Dağlıq Qarabağın Sovet Ermənistanının tərkibinə verildiyi bildirilir. Buna görə də bu gün ermənilər 1920-ci ilin dekabrında Dağlıq Qarabağın Ermənistana ilhaq edildiyini iddia edirlər.

Sovet dövrünün ədəbiyyatında və rəsmi sənədlər toplularında, məsələn, "Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranma tarixi haqqında" sənədlər toplusunda Nərimanovun 1920-ci il dekabrın 1-də çıxışının mətnində "Zəngəzur və Naxçıvan qəzalarının əraziləri Sovet Ermənistanının ayrılmaz hissəsidir" ifadəsi çıxarılmışdır [10, s.166]. Bu, N.Nərimanovun və bütövlükdə Azərbaycan Kommunist Partiyasının nüfuzunu ləkələməmək məqsədi ilə edilmişdir [6, s. 166]. Çox güman ki, bu, ziddiyyətli Azərbaycan-Ermənistan münasibətlərini qızışdırmamaq məqsədi ilə edilib, çünki bu dövlətdə ərazi problemlərinin olması diqqətdən kənarda qalıb [3, s.166-167].

Ermənistanla müharibənin sonunda Türkiyə 1920-ci il dekabrın 2-də Aleksandropolda (Gümrü) 8 maddədən ibarət sülh müqaviləsi bağladı. Bu müqavilə ilə İrəvan bölgəsi və Göyçə gölü istisna olmaqla, demək olar ki, bütün Ermənistan ərazisi Türkiyəyə verildi. Həmin gün RSFSR-in Ermənistandakı səlahiyyətli nümayəndəsi B.Leqran daşnak Ermənistanının nümayəndələri ilə Ermənistanın Sovet Respublikası elan edilməsi haqqında müqavilə imzaladı. Sovet Ermənistanının ərazisi müəyyən edildi: İrəvan quberniyası, Qars qəzasının bir hissəsi, Zəngəzur qəzası, Qazax qəzasının bir hissəsi və Tiflis quberniyasının 1920-ci il sentyabrın 8-dək Ermənistanın ixtiyarında olan hissələri. Bu müqaviləyə əsasən, Ermənistanın ərazisi Azərbaycan Respublikasının Naxçıvan, Şəruro-Dərələyəz, keçmiş İrəvan quberniyasının Yeni Bəyazət qəzaları, Zəngəzur və keçmiş Yelizavetpol quberniyasının Qazax qəzalarının bir hissəsi kimi mübahisəsiz əraziləri də daxil olmaqla genişləndirildi.

Əhali Naxçıvanın Ermənistana verilməsinə qarşı çıxdı. Hələ 1920-ci il iyulun 28-də burada Naxçıvan SSR yaradılmışdı. 167 Naxçıvan İnqilab Komitəsi Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bildirdi. Və buna görə də Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də öz bəyannaməsində Naxçıvan ərazisinə istənilən ərazi iddialarından əl çəkməyə və onu müstəqil Sovet Respublikası kimi tanımağa məcbur oldu [4, s.53]. Ona sərbəst öz müqəddəratını təyin etmək hüququ verildi. 1921-ci ilin yanvarında Türkiyə, RSFSR, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə burada əhali sorğusu keçirilmiş, Naxçıvan əhalisinin 90%-i Azərbaycanın tərkibində qalmaq arzusunda olduğunu bildirmişdir [5, s.269-301]. Türkiyə hökuməti qoşunlarını Naxçıvandan çıxarmağa

DOI:10.30546/gdu.3.2024

yalnız Rusiyanın bu bölgəni Azərbaycanın tərkib hissəsi kimi tanıması şərti ilə razılaşdı. Yerli sakinlərin müqaviməti və Türkiyənin Naxçıvana sahiblik məsələsində mövqeyi bu bölgənin taleyini həll etdi. RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da bağlanmış Moskva müqaviləsi və RSFSR-in iştirakı ilə 1921-ci il oktyabrın 13-də Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi ilə Naxçıvan vilayətinin statusu məsələsi nəhayət öz həllini tapdı. Lakin Moskva müqaviləsinin Naxçıvan bölgəsi ilə bağlı maddələrinə bolşevik Rusiyasının razılığı ilə Sovet Ermənistanı məhəl qoymadı. Azərbaycan SSR Xalq Xarici İşlər Komissarı M.Hüseynovun Q.Orconikidzeyə ünvanladığı 1921-ci il 13 iyul tarixli teleqramında erməni nümayəndələrinin Naxçıvan vilayətindən geri çağırılması üçün tədbir görülməsi xahiş olunurdu, çünki onların hərəkətləri əhalinin ayaqlanmasına" və Moskva müqaviləsinin yerinə yetirilməməsi bəhanəsi ilə türk tərəfdən Naxçıvan bölgəsinə yeni iddia cəhdləri"nə səbəb ola bilərdi . 1924-cü il fevralın 9-da Az. Naxçıvan Rayon Mərkəzi İcraiyyə Komitəsi Muxtar Sovet Sosialist Respublikasının tərkibində Naxçıvan MSSR-ə çevrildi. Respublikanın ərazisi 5987,5 km² idi. AKP(b) Siyasi Bürosu və Təşkilat Bürosunun Zəngəzurun Ermənistana verilməsi ilə bağlı qərarı yalnız 1921-ci ilin yayında qismən yerinə yetirildi (qərb hissəsi verildi) Rayonun müsəlman əhalisi Ermənistana birləşməyin əleyhinə idi. Qarabağ və Zəngəzurun fövqəladə komissarı Ş.Mahmudbəyovun 24 dekabr 1920-ci il tarixli məruzəsində deyilir ki, "Aran Zəngəzurun 4 şöbədən ibarət nümayəndələri onun yanına gələrək Azərbaycan Sovet hökumətinin nəzarətində qalmaq barədə qəti qərarlarını bəyan etdilər, onların xahişi təmin olunmasa, köçə biləcəkləri yeri göstərməyi xahiş edirlər". Həmçinin İran sərhəddindəki Vartazdan başlayaraq Cavanşir qəzasının sərhəddi ilə bitən Aran Zəngəzur əhalisinin də petisiya tərtib etdiyi qeyd olunmuşdu. Hesabatın davamında Mahmudbəyov qeyd edir ki, bu dörd sahə ona xüsusi rayon kimi ayrılıb [10, s.168]

1921-ci ilin əvvəlində Azərbaycan SSR-in inzibati bölgüsü layihəsini hazırlamaq üçün xüsusi komissiya yaradıldı. Yeni bölmə Hərbi Komissarlığın Xalq Komissarlığı yanında işləyən komissiyanın layihəsi əsasında yaradılmalı idi. "Azərbaycan Sosialist Sovet Respublikasının inzibati ərazi bölgüsü layihəsinə izahat qeydi"ndə Zəngəzur qəzasının iki rayona bölünməsi təklif olunurdu, çünki "Göstərilən rayon dağ yüksəklikləri və dərin dərələrin keçdiyi və qışda tamamilə keçilməz geniş ərazilərdir. Bir rayonun inzibati mərkəzindən idarə olunması çətindir, hətta mümkünsüzdür. Qəzanın cənubdan şimala bölünməsi ilə nail olunacaq ki, hər bir yeni yaranan mahalın tərkibinə əkin sahələri, meşələr və otlaqlar daxil edilsin və bundan əlavə əhalinin tərkibi qarışıq, erməni-müsəlman olsun ki, bu sayədə həmrəylik yaransın. Bunun nəticəsində hər iki xalqın zəhmətkeşləri güclənəcək, bu çox vacibdir. Bu hissədə kürdlərin əhalisinin əsas hissəsinin məskunlaşdığını nəzərə alaraq, bu rayonun qərbini Zəngəzur qəzası və şərqini Kürdüstan mahalı adlandıran iki yerə bölmək daha məqsədəuyğun görünür" [10, s.169].

Zəngəzur rayonu ilə bağlı bu təklif tədricən rayonun bir hissəsini Azərbaycandan ayırmağa hesablanmışdı. Yeni inzibati bölgü layihəsini hazırlamaq üçün Azrevkomun xüsusi İdarələrarası Komissiyası yaradıldı, onun sədri T.Çikalo idi. Bu komissiyanın ilk iclası 1921-ci il martın 12-də oldu. Aprelin 2-də keçirilən iclasda Zəngəzur qəzasının iki yerə bölünməsi məsələsi müzakirə edilərkən komissiya üzvləri Şimanovski və Hacıyev bölünmənin əleyhinə çıxış edərək, iqtisadi baxımdan rayonun yekdilliyini qeyd etdilər. Bu məsələ ilə bağlı komissiya Zəngəzur qəzasının köhnə inzibati hüdudlarında dəyişməz olaraq qalması barədə qərar qəbul etmişdir.

Bütün bu inzibati dəyişikliklərdən sonra Azərbaycan SSR 15 rayona bölündü: Ağdaş (keçmiş Areş), Bakı, Gəncə, Göyçay, Cəbrayıl, Cavanşir, Zaqatala, Qazax, Qubadlı (keçmiş Zəngəzur rayonunun bir hissəsi), Kubinski, Lənkəran, Nuxa, Salyan (keçmiş Cevatski

DOI:10.30546/gdu.3.2024

rayonu), Şamaxı, Şuşa [10, s.170]. İnzibati Komissiyanın 1922-ci il aprelin 19-da keçirilən iclasında MSSR-in tərkibində 14 əyalətin yaradılması haqqında Az MİK Rəyasət Heyətinin qərarının qəbul edilməsi haqqında məlumat verildi. Və bu qəzaların sərhədlərinin Vəkilovun tərtib etdiyi təsvirini dinləmək təklif olundu. Şuşa və Cəbrayıl rayonlarının sərhədlərinin təsviri müzakirə edilərkən belə qərar qəbul edildi: "Az MİK Rəyasət Heyətinin Qubadlı qəzasının, onun şimal hissəsinin ləğv edilməsi haqqında qərarını nəzərə alaraq, sözdə Kürdüstan adlanan ərazi Şuşa qəzasına, cənub hissəsi isə Cəbrayıl rayonuna birləşdirilir. Qubadlı rayonunun Ermənistan tərəfdən, Şuşa və Cəbrayıl rayonlarının qərb tərəfində sərhədlərlə bağlı məlumat olmadığı üçün bu qəzaların köhnə inzibati sərhədlər dəyişməz olaraq qalır". 1922-ci il mayın 22-də AKP(b) MK Rəyasət Heyətinin iclasında Azərbaycanın yenidən inzibati bölüşdürülməsi komissiyasının hesabatı dinlənildi. Rəyasət Heyətinin iclasında komissiyanın müfəssəl məruzəsinin dinlənilməsi qərara alındı. Hesabata Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində Komissiya tərəfindən müəyyən edilmiş sərhədlərin təsviri əlavə olunur. Artıq bu təsvirdə Zəngəzur rayonunun adı çəkilmir.

M.Hüseynov 1921-ci il mayın 9-da Azərbaycan SSR Sovetlər I qurultayındakı məruzəsində Zəngəzuru Ermənistan ərazisi kimi qeyd edir [12, s.74]. Erməni müəlliflərinin yazdığına görə, 1921-ci il iyulun 20-də Xalq Komissarları Soveti Ermənistanın inzibati bölgüsü haqqında dekreti təsdiq etdi. Buna əsasən Sovet Ermənistanı 8 qəzaya bölünürdü: İrəvan, Aleksandropol, Eçmiədzin, İcevan, Karaklis, Nor-Bəyazit, Lori-Pəmbək Dərələyəz. Sonralar Zəngəzur qəzası təşkil olundu [7, s.178]. Yəni Zəngəzurun qərb hissəsi mərkəzin qərarı ilə Azərbaycandan çıxarılaraq Ermənistana birləşdirildi. Bundan sonra Zəngəzurun qərb hissəsində sistemli şəkildə ermənilər məskunlaşmağa başladı və yerli azərbaycanlı əhali sıxışdırıldı, hətta öz ərazilərindən zorla qovuldu. 1929-cu ildə Zəngəzurun cənub-qərb hissəsi də Ermənistana birləşdirildi. Zəngəzurun ölkənin əsas hissəsindən ayrılması yalnız bir məqsədə xidmət edirdi: Türkiyə ilə Şərqdəki digər türk xalqları arasında birbaşa əlaqələrin qarşısını almaq. Zəngəzurun böyük hissəsinin Ermənistana birləşdirilməsi nəticəsində Naxçıvan bölgəsi Azərbaycanın əsas hissəsindən təcrid olundu.

**_Ədəbiyyat_**


1. Azərbaycan tarixi : 7 cilddə, VI s., Bakı: Elm, 2000, 568 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası /Baş redaktör Y.M.Mahmudov: II cild., Bakı: Lider, 2005, 475 s.
3. Həsənli C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı: Adiloğlu, 2012, 656 s.
4. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı: UniPrint, 2009, 256 s.
5. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
6. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı: Elm, 1990, 112 s.
7. Акопян А.М., Эльчибекян А.М. Очерки по истории Советской Армении. Выпуск 1.1917-1925 гг. Ереван: Армгиз, 1955, 256 с.
8. Барсегов Ю.Г. Геноцид армян.Ответственность Турции и обязательства мирового сообщества. Сборник документов: В 2-х т. Т.I. М: Гардарики, 2003 /http://www/genocide.ru/lib/barsegov/ ; Т.II.М.: Гардарики,2003, 912 с.
9. Мустафазаде Р. Две Республики: азербайджано-российские отношения 1918-1922 гг. М.: МИК, 2006, 356 с.

DOI:10.30546/gdu.3.2024

10. С.О.Мустафаева.Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.) Баку, 2017, «Европа» , 304 с.
11. Советское Закавказье. Справочная книга на 1926-27 год. Тифлис: Закреклама и Т.К. Мопр",1927, 62 с.
12. К истории образования Нагорно-Карабахской Автономной области Азербайд жанской ССР.1918-1925: Документы и материалы. Баку: Азернешр, 1989, 334 с.
13. Файгл Эрих Страна огней на шёлковом пути - Истрия Азербайджана. Пер. с нем. Баку: Азер Тадж, 2009, 189 с.

## УСИЛЕНИЕ ТЕРРИТОРИАЛЬНО-ГРАНИЧНЫХ ВОПРОСОВ С АРМЕНИЕЙ ПОСЛЕ СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ССР. ПОЗИЦИЯ БОЛЬШЕВИКСКОЙ РОССИИ

***Мехтиева Насрин Фамиль***
***Бакинский Государственный Университет***
***Резюме***

После оккупации и советизации Азербайджана 28 апреля 1920 года геополитическая ситуация на Южном Кавказе изменилась. Дашнаки, находящиеся у власти в Армении, расширили свои претензии к Азербайджану с целью оккупации новых территорий. Правительство Азербайджана предпочитало решать территориальные споры с Арменией дипломатическими и политическими, а не военными средствами. Правительство Армении, считающее Зангезур и Карабах армянскими землями, путем грубой фальсификации исторических фактов, прибегло ко всем средствам для оккупации этих территорий. Чтобы добиться необоснованных претензий Дашнакской Армении, Россия стремилась выступить посредником в спорах с Азербайджаном перед советским правительством, объявить спорные территории принадлежащими азербайджанцам и разместить российские войска. СССР пытался передать территории Азербайджана дашнакской Армении, объявляя их спорными.

В статье рассматривается оккупация армянами исторических территорий, принадлежащих Азербайджану, позиция Центра по этому вопросу, международная ситуация, необоснованные территориальные претензии.

## STRENGTHENING TERRITORIAL-BORDER ISSUES WITH ARMENIA AFTER THE CREATION OF THE AZERBAIJAN SSR. THE POSITION OF BOLSHEVIK RUSSIA

***Mehtiyeva Nasrin Famil***
***Baku State University***
***Summary***

After the occupation and Sovietization of Azerbaijan on April 28, 1920, the geopolitical conditions in the South Caucasus changed. Dashnaks in power in Armenia expanded their claims against Azerbaijan in order to occupy new territories. The government of Azerbaijan preferred to resolve territorial disputes with Armenia through diplomatic and political rather than military means. The Armenian government, which considers Zangezur and Karabakh to be Armenian lands by grossly falsifying historical facts, has resorted to all means to occupy these territories. In order to achieve Dashnak Armenia's baseless claims, Russia aimed to mediate the disputes with Azerbaijan to the Soviet government and to declare

DOI:10.30546/gdu.3.2024

disputed territories belonging to Azerbaijanis and deploy Russian troops. The USSR was trying to give the territories of Azerbaijan to Dashnak Armenia, declaring them disputed.

The article examines the occupation of historical territories belonging to Azerbaijan by Armenians, the position of the Center on this issue, the international situation, groundless territorial claims.

***Rəyçi: t.e.d., prof. İradə Hüseynova,***

***Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının 10 iyun 2024-cü il tarixli 06 saylı iclas protokolu***

***Daxil olduğu tarix 20 sentyabr 2024-cü il.***